# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ ƏMR 85

Bakı şəhəri "09" oktyabr 2015-ci il

**"Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrası barədə"**

"Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2015-ci il tarixli 595 nömrəli Fərmanını rəhbər tutaraq tibbi-sosial ekspertiza və reabilitasiya xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsəd-zadəyə tapşırılsın:

1.1. əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi üçün həkim-məsləhət və hərbi–həkim komissiyalarının rəsmiləşdirdikləri tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin vahid mərkəzləşdirilmiş reyestri yaradılsın və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Elektron hökumət" portalı vasitəsi ilə bu reyestrə real vaxt rejimində çıxışı 15 gün müddətində təmin edilsin;

1.2. tibbi-sosial ekspertiza müayinəsinə göndəriş barədə məlumatların müayinəyə göndərilən şəxslər tərəfindən elektron formada əldə olunması imkanını yaratmaq məqsədilə "Elektron hökumət" portalına müvafiq informasiya-proqram resursları bir ay müddətində əlavə edilsin.

1.3. bu əmrin 1.1.,1.2.,3 bəndlərinin icrası ilə bağlı Respublikanın şəhər və rayonların tibb idarə və müəssisələrində müvafiq təlimlərin keçirilməsi təmin edilsin.

2. Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova və İnformatika və Statistika İdarəsinin rəisi İ.İsmayılovaya tapşırılsın ki, tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin vahid mərkəzləşdirilmiş reyestrinə daxil edilmə qaydaları bir ay müddətinə hazırlanaraq təsdiqə təqdim edilsin.

3. Respublikanın şəhər və rayonların tibb idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın ki, həkim-məsləhət komissiyaları üzvləri gücləndirilmiş elektron imza ilə təmin edilsin və tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin rəsmiləşdirildiyi gün

gücləndirilmiş elektron imza ilə imzalanmış elektron sənəd formasında göndərişlərin vahid mərkəzləşdirilmiş reyestrinə daxil olunması təmin edilsin.

4. Əmrin icrasına nəzarət nazir müavini Elsevər Ağayevə həvalə edilsin.

**Oqtay Şirəliyev**